# Seminar-müşavirə keçirilmişdir

Qəbələ Rayon İcra Hakimiyyətində statistika idarəsi ilə birlikdə yerli icra nümayəndəliklərinin əməkdaşları üçün maarifləndirici seminar-müşavirə keçirilmişdir.





Seminar-müşavirəni RİH başçısının birinci müavini Abil Ağasəfov açmışdır. O, inzibati ərazi nümayəndəliklərində əhalinin siyahıyaalınması, eyni zamanda ailə təsərrüfatlarında sosial-iqtisadi göstəricilərin müəyyən edilməsi istiqamətində müstəsna əhəmiyyətə malik olan "Təsərrüfatbaşına kitablar"ın bəzi hallarda müvafiq qaydalara uyğun işlənilmədiyini, göstəricilərin uçota alınmasında qeyri-dəqiqliyə yol verildiyini bildirmişdir.

Sonra rayon statistika idarəsinin rəisi Ayaz İskəndərov seminar-müşavirədə çıxış edərək, icra nümayəndəliklərində təsərrüfatbaşına uçotun aparılmasının əhəmiyyətindən danışmış, kitabın işlənilməsində olan bəzi dəyişikliklərin nəzərə alınması və mövcüd nöqsanların aradan qaldırılması ilə bağlı geniş metodiki məlumatlar vermişdir.

Tədbirdə nümayəndəlik əməkdaşlarının çoxsaylı sualları cavablandırılmışdır

Seminar-müşavirəni yekunlaşdıran Abil Ağasəfov yerli icra nümayəndəliklərində aparılan uçot-hesabat işlərinin düzgün təşkilinə xüsusi diqqət yetirilməsini, təsərrüfatların şəxsi hesabındakı bölmələr üzrə göstəricilərin mütləq qaydada kitaba daxil edilməsini, bu məqsədlə zəruri olan bütün tədbirlərin vaxtında həyata keçirilməsini və "Təsərrüfatbaşına kitab"ların təlimata uyğun doldurulmasını tövsiyə etmişdir.

***"Qəbələ".***

# Qəbələ «Xəzərdən başlayan su səyahəti» proqramının iştirakçısıdır



***Məlum olduğu kimi bu ilin may ayının 12-dən 22-dək Vətənimizin paytaxtı Bakı şəhərində beynəlxalq idman aləminin ən əhəmiyyətli hadisələrindən biri olan İslam Həmrəyliyi oyunları keçiriləcəkdir. Dünyada artıq qabaqcıl idman ölkəsi kimi tanınmış Azərbaycan bunu «Bakı-2017» də bir daha təsdiq edəcək.***

Planetin mötəbər idman yarışlarının bir çox ənənələri var. Olimpiya idman oyunlarının məşəlinin yandırılması belə ənənələrdən biridir.

«Bakı- 2017» IV İslam Həmrəyliyi oyunlarında isə məşəl əvəzinə «Xəzərdən başlayan su səyahəti» proqramı həyata keçirilmişdir. İslam aləmində su həyat mənbəyi, təmizlik və birlik rəmzi kimi simvolizə olunur.

Aprel ayının 5-də Bakıdakı Daş salnamə muzeyindən «Su səyahəti» proqramı start götürmüşdür. Dövlətimizin başçısı muzeydə Xəzər suyu ilə doldurulmuş 16 kuzəni 16 məkandan gəlmiş 16 uşağa təqdim edilmişdir. 37 gün ərzində 3 min kilometrdən artıq məsafəni qət edəcək «Su səyahəti»ndə 15 su hövzəsindən toplanmış su mayın 12-də «Bakı 2017» idman oyunlarının açılış mərasiminin bir hissəsi




olacaq.

Fərəhlə deməliyik ki «Su səyahəti» üçün ölkə üzrə seçilmiş 16 məkandan biri də Qəbələ rayonudur. Beləliklə Qəbələnin zümrüd bulaqlarından toplanmış su 2017-ci ilin möhtəşəm idman hadisəsinin açılışında iştirak edəcək.

***«Qəbələ».***

# Futbolçularımız Azərbaycan yığmalarında



"Qəbələ" futbol akademiyasının oyunçuları Azərbaycan milli komandalarına çağırılıb. Üç futbolçumuz U-19, ikisi isə U-16-ya dəvət alıb. Murad Popov, Fərid Nəbiyev və Əli Sadıxov 19 yaşadək futbolçulardan ibarət komandanın hazırlıqlarında iştirak edəcək. Aprelin 6-dan 14-dək Bakıda təlim-məşq toplanışı keçirəcək yığmamız ayın 11-də və 13-də Makedoniya ilə 2 yoxlama oyununda qüvvəsini sınayacaq. Bu görüşlər "Dalğa Arena"da baş tutacaq.

Hüseyin Mürsəlov və Ülvi Mədətov 16 yaşadək futbolçulardan ibarət yığmanın hazırlıqlarına qoşulub. Onlar aprelin 2-də bir araya gələn milliyə sonradan dəvət edilib. Öncədən isə daha 7 oyunçumuz U-16-ya cəlb olunmuşdu. Bunlar Rauf Rüstəmli, Vüsal Şabanov, Samir Məhərrəmli, Nemət Şıxəmirov, Rüfət Əhmədov, Veysəl Rzayev və Rauf Məhərrəmovdur. Futbolçularımız ayın 9-dək davam edəcək hazırlıqda iştirak edəcək.

***«Qəbələ».***

# Görkəmli tədqiqatçı alim

***Azərbaycanda mətnşünaslığın inkişafında, xüsusilə də xalqımızın əvəzsiz mənəvi sərvəti sayılan əlyazma kitablarının toplanıb qorunması, araşdırılması və nəşr edilməsi sahəsində böyük xidmətləri olan görkəmli filoloq alimlərimizdən biri həmyerlimiz, filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi mərhum Cahangir Qəhrəmanovdur. Tanınmış dilçi və ədəbiyyatşünas alim mənalı həyatının böyük bir hissəsini qədim yazılı abidələrin tədqiqi və nəşri işinə həsr etmişdir.***

Cahangir Vahid oğlu Qəhrəmanov 10 fevral 1927-ci ildə Qəbələ şəhərində ziyalı ailəsində dünyaya göz açmış, orta təhsilini Bakıda almışdır. O, Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsini fars dili və ədəbiyyatı ixtisası üzrə bitirdikdən sonra Moskva Dövlət Universitetinin aspiranturasında oxumuş və 1955-ci ildə "Azərbaycan ədəbi dilində fəlsəfə terminləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Bir neçə il indiki Bakı Slavyan Universitetində baş müəllim və dosent vəzifəsində işləyən gənc alimin qədim mənbələrə, xüsusilə də əlyazmalara olan dərin marağı çox keçmir ki, onu 1960-cı ildə Əlyazmalar Fonduna gətirir və həmin ildən ömrünün sonunadək taleyini bu elm ocağı ilə bağlayır. Cahangir Qəhrəmanov Əlyazmalar Fondunda çalışdığı illərdə (1960-1995) anadilli yazılı abidələrimizə xüsusilə böyük maraq göstərir. Bilavasitə həmin maraq və vurğunluğun nəticəsi olaraq 1964-cü ildə XV əsr Azərbaycan tərcümə abidəsi "Əsrarnamə"nin fotofaksimile çapını sanballı linqvistik oçerklə və sözlüklə birgə nəşr etdirir. Cahangir Qəhrəmanovun mətnşünaslıq sahəsində səmərəli elmi araşdırmalarının ən böyük uğuru və nailiyyəti isə Azərbaycan şairi və mütəfəkkiri Seyid İmadəddin Nəsiminin türkcə divanının elmi-tənqidi mətninin tərtibi və nəşri ilə bağlıdır.

Cahangir Qəhrəmanovun bu dəyərli və sanballı araşdırması nəticəsində İmadəddin Nəsiminin indiyədək elm aləminə bəlli olmayan bir sıra əsərləri ilk dəfə üzə çıxarılmış və nəşr olunmuşdur. Gərgin elmi axtarışların layiqli bəhrəsi olan bu tədqiqatına görə Cahangir Qəhrəmanov 1969-cu ildə filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır.

Cahangir Qəhrə-



manovun özünün hazırladığı və onun iştirakı ilə tərtib edilib nəşr olunan çoxsaylı kitabları sırasında İmadəddin Nəsimi, Nemətullah Kişvəri (XV əsr), Suli Fəqih (XIV əsr), Mustafa Zərir (XIV əsr), Füzuli kimi söz ustalarının, eləcə də dövrünün görkəmli ədəbiyyatşünası kimi tanınan Hüseyn Əfəndi Qayıbov kimi sənətkarların əsərləri xüsusilə əhəmiyyətlidir.

Professor Cahangir Qəhrəmanov Əlyazmalar Fonduna rəhbərlik etdiyi ilk illərdən peşəkar kadr hazırlığına xüsusi diqqət yetirir, gənc mütəxəssislərə qayğı və həssaslıqla yanaşırdı. Onun rəhbərliyi ilə 19 namizədlik dissertasiyası müdafiə edilmişdir. Cahangir Qəhrəmanov həm də 2 doktorluq işinin elmi məsləhətçisi olmuşdur. Onun fədakarlığı sayəsində 1986-cı ildə Respublika Əlyazmalar Fondu Əlyazmalar İnstitututuna çevrilmişdir.

Cahangir müəllim olduqca qayğıkeş bir insan idi. Başçılıq etdiyi kollektivin hər bir üzvünün şəxsi həyatı, gündəlik qayğıları ilə maraqlanır, lazımi köməyi əsirgəmirdi. Professor Cahangir Qəhrəmanov 69 illik həyatının 45 ilini Azərbaycan filologiya elminin inkişafına həsr etmiş, bu yolda bütün güc və bacarığını əsirgəməmişdir. O, özündən sonra xalqına tükənməz və zəngin bir elm xəzinəsi qoyaraq əbədiyyətə qovuşdu.

***«Qəbələ».***